# SOVET «HÜQUQ BƏRABƏRLİYİ»NİN TƏMİN EDİLMƏSİNDƏ QADIN HÜQUQLARI, ANA VƏ UŞAQLARIN MÜHAFİZƏSİ (1920-1930-CU İLLƏR)

**Gülzar İBRAHİMOVA**

AMEA-nın İnsan Hüquqları
Elmi Tədqiqat İnstitutu

Bakı / AZƏRBAYCAN

**XÜLASƏ**

Azərbaycanda qadın siyasətinin öyrənilməsi milli siyasətşünaslığın mühüm məsələlərindən biridir. Məqalədə sovet rejiminin 1920-1930-cu illərdə qadınlarla bağlı həyata keçirdiyi hüquq bərabərliyi və onun doğurduğu təzadlar, ana və uşaqların mühafizəsi sahəsində verilən qərarların əks etdirdiyi real gerçəkliklər öz əksini tapmışdır.

**Açar sözlər:** Azərbaycan, hüquq bərabərliyi, ana və uşaqların mühafizəsi.

## CONTRADICTIONS OF SOVIET EQUAL RIGHTS. PROTECTION OF MOTHERS AND CHILDREN (1920-1930s)

**ABSTRACT**

Studying of women policy in Azerbaijan is one of the important issues in national policy studying. From this view point the equal rights and its contradictions, the trustworthiness of resolutions on protection of women and children realized in connection with women in 1920-1930s by the soviet regime are reflected in the article.

**Key words:** Azerbaijan, equal rights, women and children protection

## Giriş

Şimali Azərbaycanda sovetlərin hakimiyyətə gəlişi sovet rejiminin rus süngülərinin ucunda Azərbaycana gətirilən və burada zorla qurulması bir sıra ağrılı prosesləri ortaya qoydu. Xalqımız paradoksallıqla dolu sənayeləşmə dövrünü yaşadı. 1927-ci ildə 28 əmək qabaqcılı «əmək qəhrəman»ı adına layiq görüldü: «zərbəçilər», «sosializm yarışı», «İməciliklər»… Azərbaycan qadını daha ağır bir şəraitdə bu prosesin iştirakçısı oldu. «Qəhrəmanlıq» anlayışı altında qul əməyi kimi istismar edilən kolxozçu-pambıqçı, tütünçü qadınların bir neçə günlük südəmər körpə uşaqlarına verə bilmədikləri ana diqqəti, ana qayğısı və s. həmin dövrdə əslində qadına verilmiş «azadlığın» görünməyən tərəfi idi [23-26].

Azərbaycanının «müstəqilliyi» ilk gündəcə formal xarakter daşıdı. Güc strukturları, siyasi hakimiyyət Moskva mərkəzinin tabeliyində olduğundan «Milli» Hərbi hissələr Qırmızı Ordunun tərkib hissəsi kimi, hakimiyyət orqanları isə rus hakimiyyət orqanlarının aciz, hüquqsuz elementləri kimi formalaşırdı. Azərbaycan Fövqəladə Komissarlığı məhkəmə və istintaqsız kütləvi cəza tədbirləri görürdü. Azərbaycan Cümhuriyyətinin fəalları və tərəfdarları diqqətlə işlənib hazırlanmış repressiyalara məruz qaldılar, mənən və cismən məhv edildilər. Arxiv mənbələrinin verdiyi məlumatlara görə Şimali Azərbaycanı qəsb edən sovet rejimi qısa müddətdə burada 48 min adamı «qırmızı terrorun» qurbanı etdi [27]. Bolşevik rejimi bütün partiyaların fəaliyyətini

qadağan etdi. Ölkədə bir partiyalı diktatura quruldu. Azərbaycan xalqının milli məfkurəsinə qadağa qoyuldu. Bütün xalqların mədəni inkişafı üçün vahid «ənənəvi» sistemlər yaradıldı. Moskvanın hərb yolu ilə qurduğu bu sərt və amansız rejimə qarşı üsyanlar 1920-ci ilin mayında Gəncədə, iyununda Qarabağ və Zaqatalada, iyulda Şamaxıda, avqustda Quba, Qusar, Dəvəçidə, daha sonra isə bu Lənkəranda, Astarada və s. bölgələrdə baş verdi. Hakim bolşevik rejimi sürətlə şəxsiyyətə pərəstişə doğru aparırdı: bir neçə ildən sonra yalnız bir şah – Stalin oldu və ancaq onun icazəsi ilə tutulacaq işlər, deyiləcək sözlər «azadlıq» adlandı.

Aprel çevrilişi Azərbaycan dövlətçiliyini məhv etsə də qadına münasibət, onun cəmiyyətdəki yeri istiqamətində müəyyən irəliləyişlər əldə olunmasına şərait yaratdı. Yeni sistem qadınlara ictimai həyatın bütün sahələrində kişilərlə bərabər hüquq, eləcə də vətəndaşlıq hüququ verdi. Sovet hakimiyyətinin ilk günlərindən qadın probleminin hüquqi tənzimlənməsi sahəsində bir sıra prinsipial addımlar atıldı. Qadın hüquqlarının təmin olunması haqqında dövlət tərəfindən verilən qanunların yerinə yetirilməsinin həyata keçirilməsi üçün N. Nərimanov yazırdı ki, SSRİ Mərkəzi İcraiyyə Komitəsi Rəyasət Heyəti Şura Şərqinin bütün millətlərindən olan zəhmətkeşləri qadınların hüquqlarını mühafizə edən qanunların həyata keçirilməsinə daimi nəzarət etməyə dəvət edir. Qadınları cəhalətdə saxlamaq cəhdlərinə qarşı daima mübarizə aparılmalı və dövlət işinin bütün sahələrində – ictimai və siyasi həyatda Şərqin zəhmətkeş qadınlarının iştirak etmələri üçün bütün tədbirlər görülməlidir. İlk növbədə qadınların bütün sahələrdə kişilərlə hüquq bərabərliyi təsbit olunmuşdur ki, bu da cəmiyyətin sosial-ictimai inkişafında irəliyə atılmış böyük addım idi.

Real həyatda isə bu hüquqi normaları tətbiq etmək çox çətin idi. Onların pozulmasına qarşı mübarizə mexanizmi yox dərəcəsində idi.

## "Mehr"dən "Nikah"a

Sovetlərin hakimiyyətinin ilk illərindən başlayaraq qadının şəxsiyyətinin, əxlaqının, cinsi toxunulmazlığının qoruması məqsədilə cinayət qanunvericiliyində bir sıra xüsusi hüquqi normalar işlənilib hazırlandı və qəbul edildi. Milli xüsusiyyətləri nəzərə alaraq bəzi respublikalarda sosial müdafiə tədbirlərinin həyata keçirilməsi zamanı bir sıra qadın məsələsi ilə bağlı ümumi qanunvericilikdən kənara çıxmalara yol verilirdi. Həmin dövr aşağıdakı məişət təzahürləri ASSR-də cinayət qanunvericiliyinə əsasən sosial-təhlükəli cinayətlər hesab edilirdi:

Çoxarvadlılıq, qadınların aldadılma yolu ilə satış məqsədilə qaçırılması, onların pritonlara yerləşdirilməsi, istismarı və digər məqsədlərlə istifadəsi; qadının razılığı olmadan nikah məqsədilə qaçırılması; nikah yaşı çatmayanlarla nikaha girmə; nikah yaşı çatmadıqda və ya qanuni nikah ləğv edilmədiyi halda din xadimlərinin şəriətlə nikah bağlanması; qadının azadlığa çıxmaq və öz hüquqlarının bərpası yolunda mübarizə zamanı öldürülməsi; nikah yaşı çatmayanların nişanlanması və s. (MİK-nın 10 iyun 1923-cü il, 15 noyabr 1924-cü il, 26 dekabr 1925, 9 fevral 1926-cı il; 15 noyabr 1924 qətnaməsi. /A.M №7, m. 295-23; A.M. 7 m. 295-23; A.M.№12,m 30; A.M. 8. 12 m. 308-24 A.M.8. 12 m.308-24; A.M..m.308, № 12-20; A.M. 812, m. 308-24).

Vətəndaşlıq haqqında qanunvericilikdə Azərbaycan şəraitinin xüsusiyyətləri nəzərə alınmış, RSFSR-də olduğu kimi qızların nikah yaşı 18 deyil, türk qadınlarının fiziki mədəni inkişafı və maarif dairəsi nəzərə alınmaqla Azərbaycan SSR-də qadının nikah yaşı 24 avqust 1920-ci il dekreti ilə və 1923-cü ildə verilmiş xüsusi qanunvericilik

aktı ilə 16 yaş təsdiq edilmiş, Xalq Səhiyyə Komissarlığının, Tibbi Şuranın alimlərinin 7 mart 1923-cü il qərarına görə ginekoloji, statistik, bioloji cəhətdən 16 yaşından erkən nikaha daxil olma qadağan olunmuşdu [8, v.1; 9, v.40].

Hökumətin xüsusi qərarına əsasən 8 sentyabr 1923-cü ildən sonra bağlanan dini nikahlar heç bir hüquqi qüvvə daşımırdı. Kəbin aktları, onlarla birlikdə mehr məhkəmə müdafiəsi zamanı həm forma etibarı ilə uyğun olmadığı, həm də öz məzmununa görə V.M.-də cavabdehliyin heç bir növünə müvafiq gəlmədiyi üçün hüquqlardan məhrum edilmə tanınmalı idi. «Mehr» türk qadının əri öldükdə, boşandıqda və faktiki ayrıldıqda təmin olunması üçün xüsusi pulla ödəniləcək təəhhüddür. Bu «mehr» kəbin aktlarına aid edilən möhkəmliyi (qırılmazlığı) təşkil edir. Hüquqi təbiətinə görə vətəndaş nikaha girməzdən əvvəl eyni zamanda mehr razılığı ilə şəriət (dini) nikahının olmasıdır. Kəbin aktının etibarlılığı üçün nikaha daxil olanların imzası tələb edilmir, «mehr» verən və zamin duranın imzası olmur, vəkil edilən şəxsin yazılı səlahiyyəti olmur, sadəcə olaraq göstərilən şəraiti təsdiq edən molla və şahidlərin imzası kifayət edir. Qəbul edilmiş qərara əsasən kəbin aktının və mehrin etibarlılığı 1927-ci ilə qədər qüvvəsini saxlayırdı. Bütün cəhdlərə baxmayaraq rejim bu məsələlərdə öz istəklərinə nail ola bilmirdi. Köhnə adət-ənənələr, ictimai şüur və rəyin öz ənənəvi mövqelərində möhkəm dayanması ciddi problemlərin qalmasını şərtləndirirdi [28-32]. Azərbaycan Əməkçi Qadınlar Komitəsinin 1926-cı il üçün verdiyi məlumatlara görə, 1926-cı ildə xalq məhkəmələrində qadınlarla bağlı baxılmış -1269 iş aşağıdakılardan ibarət idi: boşanmalar haqqında - 355, 32%; əmlak iddiaları - 84, kəbin pulları haqqında - 15, aliment alınması haqqında - 382, başqaları - 433 [18,v.13-14 ] .

Nəzərdən keçirilən faktlardan aydın olur ki, araşdırılan dövrdə Azərbaycan şəraitində qanuni qaydada mübarizə aparılan əsas problemlərdən biri də çoxarvadlılıq idi. Dini nikahlar zamanı qeydiyyatın olmaması ər-arvadın birgə yaşayışı zamanı tərəf kimi qadınların hüquqlarının qorunması mümkün deyildi. Qadının həyat və hüquqi statusunun yaxşılaşdırılması məqsədi ilə hazırlanmış qanun layihələrinin birində aşağıdakı təkliflər irəli sürülürdü [12, v.10]:

- Kişi ilə qadın nikaha daxil olduqda alimentin mahiyyəti (alınması) haqqında xəbərdarlıq edilir, yalan məlumatlar üçün cinayət məsuliyyətinə cəlb edilir.

- Bütün hüquqi dəyişikliklər, ər və arvadın familiyalarının dəyişməsi və ya birləşdirilməsi qadının sərbəst razılığından asılıdır (maddə 26-29).

- Nikaha daxil olan cütlüklərin ümumi əmlak üzərində sahiblik və istifadə hüququ qadının və ərin birinin o birinə nisbətən hüquqlarının azalması istiqamətində olmamalıdır;

- Qarşılıqlı şəkildə birgə nikahda olduqları müddətdə qadının uşaqlara baxması, ev işləri ilə məşğul olması ərin vəsait qazanmaq üçün gördüyü işlə bərabər tutulur (maddə 30-31).

- Ər və arvad bir-birinə maddi cəhətdən kömək etməlidir. Aliment təkcə əmək qabiliyyəti olmadığı halda deyil, həm də işsizliyə görə də verilir (maddə 32).

- Dul qalmış arvad ərin miras qalmış əmlakından pay almaq hüququna malikdir. Əgər vəsiyyətnamə mövcuddursa, varislər arasında ödəmə mütənasib qaydada aparılmalı, alınan pay vərəsəlik üçün nəzərdə tutulan yekun paydan çox olmamalıdır. (maddə 32, əlavə 1).

- Aylıq alimentin verilməsi zamanı aliment verənin qərarına əsasən 6 ayı qabaqcadan ödənilə bilər. Qüvvədə olan qanun

yalnız əmək gəliri ilə dolanan və aztavanalı kəndlilərə aid edilmir (maddə 32, əlavə 2).

- Əkinçilik təsərrüfatında çalışan əməkçilərdən aliment alınan zaman təkcə ümumi əmlakdan tutulan payla kifayətlənmək olmaz, cavabdeh ümumi təsərrüfatda işləyirsə və torpağın ayrılmasına, mal-qaraya toxuna bilmirsə, onda puldan əlavə təsərrüfat məhsullarından aliment verilməlidir (maddə 33);

- Nikah pozulduqdan sonra alimentin alınması nikaha qədər və nikah pozulduğu gündən etibarən bir il ərzində əmək qabiliyyətini itirən keçmiş ər-arvad və həmçinin nikah pozulduğu gündən etibarən bir il müddətində işsiz olan keçmiş ər-arvad aliment almaq hüququna malikdir. (maddə 36).

- Valideynlər və uşaqlar arasında qarşılıqlı münasibət uşaqların marağına xidmət edir və bu həm əməkçi kollektivlərin, həm də dövlətin qarşısına qoyduğu əsas məqsəd və vəzifələrdən biridir. Valideynlərin fəaliyyəti qəyyumluq orqanlarının nəzarətində olur və onlar məhkəmənin qərarı ilə uşaqların onlardan alınması ilə valideynlik hüququndan məhrum edilə bilərlər, amma bu onları uşaqların saxlanması üçün gələcək xərclərdən və onların tərbiyələndirilməsindən azad etmir (maddə 45 və 64).

- Uşaqların saxlanılması məsuliyyəti hər iki valideyn üçün eynidir. Uşaqların yetkinlik yaşına çatana qədər hər iki valideyn onların bütün maddi, mənəvi ehtiyaclarını ödəməlidirlər. Burada tərəflərdən birinin maddi vəziyyəti də nəzərə alınmalıdır (maddə 55 və 61).

- Sığorta və ya sosial təminat iddiadan imtina etməyə əsas vermir, valideynlərin ehtiyacı məsələsini və onlara vəsaitin ayrılması məhkəmənin nəzərinə çatdırılır. (Maddə 62 və layihəyə əlavə).

- Yetkinlik yaşına çatmamış bacı və qardaşlar əsaslı olaraq valideynlərdən onlara miras ala bilmədikdə, kifayət qədər imkanı olan bacı və qardaşlardan aliment ala bilərlər (maddə 66).

- Ehtiyacı olan baba və nənə imkanı olan nəvələrindən aliment ala bilər (maddə 67).

- Ana və uşağın maraqlarının müdafiəsi baxımından nadir hallarda təsadüf edilsə də, ata uşaqdan imtina edərsə, uşağın saxlanması üçün atadan vəsait alınır; belə hallarda qadın VVAQ orqanlarına müraciət etməklə uşağın atasının kimliyini ərizə yazmaqla bildirir... (maddə 41, 43).

- Valideynlər haqqında qeydlər düzgün verilmədikdə maraqlı şəxs atalığı və ya analığı sübut və ya inkar etmək üçün məhkəməyə müraciət edə bilər (maddə 39).

- Övladlığa götürmə zamanı övladlığa götürülənin yaşı 1-dən az olmamalıdır, övladlığa götürülən uşaq doğma uşaqlarla eyni hüquqa malikdir. (maddə 76, 74).

- Qadınlara hüquqi kömək ümumi qaydada aparılır [10, v.11-14].

Sahibsiz uşaqların vəziyyətinin yaxşılaşdırılması məqsədilə dövlət qəti addımlar atırdı. Bakı soveti «Uşaqlar», «Analığın və uşaqlığın mühafizəsi» həftələri həyata keçirirdi. 1926-cı ildə «Sahibsiz uşaqlara kömək həftəsi»nin də layihəsi qəbul edilmişdi [7, v. 2-3; 8,v.1; 9,v.2; 10,v.1; 21,v.2-3]. Uşaqların yaşayış şəraitinin yaxşılaşdırılması məqsədi ilə Azərbaycan SSR MİK yanında komissiya təşkil edilməsi barədə qərar qəbul edilmişdir. Qərarda göstərilir ki, komissiyanın yaradılmasında məqsəd uşaqların baxımsız və nəzarətsiz qalmasına qarşı mübarizə aparmaq, dövlət və ictimai təşkilatlar vasitəsi ilə onlara həm maddi kömək göstərmək, həm də əməyə alışdırılması yolu ilə yardım edilməsi idi [20, v.2-3]. Bu istiqamətdə həyata keçirilən növbəti məsələ yetkinlik yaşına çatmayanların sosial hüquqi və mühafizəsi ilə bağlı seminarın proqramın təsdiq edilməsi olur [22, v.1-2].

Azərbaycan Respublikasında ailə-nikah, qəyyumluq və vətəndaş vəziyyəti ilə bağlı məsələlərə dəqiq aydınlıq gətirilməsi ilə bağlı Azərbaycan SSR MİK vətəndaşların yaş həddinin təyin edilməsində həkim-ekspertlərin və icraiyyə komitələrinin iştirakı ilə aparılması barədə VM-nin 222 maddəsində dəyişikliklər etmək haqqında 19 dekabr 1929-cu ildə xüsusi qətnamə qəbul etdi [18, v.2]. 4 sentyabr 1929-cu ildə Azərbaycan SSR MİK və XKS tərəfindən Azərbaycan SSR qanunlar məcəlləsində «Ailə, nikah və qəyyumluq haqqında qanun»a yeni əlavələr edildi. Bu əlavələr aşağıdakılardan ibarət idi:

«… Maddə 49- 1. Yetkinlik yaşı çatmayan və ehtiyacı, əmək qabiliyyəti olmayan uşaqların saxlanmasında ögey ana və ögey ata da aşağıdakı hallarda məsuliyyət daşıyır:

a) Uşaqların valideynləri ölübsə;

b) Valideynlərin uşaqları saxlamağa kifayət qədər vəsaiti yoxdursa;

Ögey ata və ya ana əgər uşaq valideyni ölənə qədər onların öhdəsində olarsa, göstərilən "b" maddəsinin qüvvəyə mindiyi müddətədək ögey ata və ya ana bu məsuliyyəti daşımağa məcburdur. Ögey oğul və ya qız 10 ildən artıq müddətdə ögey ata və ya ananın himayəsi altında yaşadığı halda ögey ata və ya ananın ehtiyacı və ya əmək qabiliyyəti olmadıqda onları saxlamağa məsuliyyət daşıyırlar (borcludurlar).

Çox vaxt isə boş danışıqlardan uzağa gedilmir, real iş görülmürdü [17, v.11-12; 14, v.2].

## Qadın və uşaqların sosial müdafiəsi

Qadınların sosial müdafiəsinin təşkili dövlətin reallaşdırmaq istədiyi məsələlərdən biri idi. Analığın və hamiləliyin mühafizəsi və sağlamlığın qorunması məqsədi ilə xüsusi ağır və zərərli istehsalat sahələrində qadın əməyinin istifadəsinə qadağa qoyulması məqsədilə qadın əməyinin nizamlanması üçün sovet hökuməti tərəfindən bir sıra qanunlar tərtib edildi. 1927-ci il iyunun 18-də Azərbaycan SSR MİK-nın təşəbbüsü ilə keçirilən kənd şuraları sədrlərinin müşavirəsində müzakirə edilən 8 məsələdən biri də "Ana-uşaq və onun Azərbaycan kəndində mühafizəsi" məsələsi olmuşdur [11, v.1]. 10 noyabr 1928-ci il XSK-nın telefonoqramında Ana və Uşaqların Mühafizəsi ilə bağlı məsələ qeyd edilirdi [16, v.1]. 1928-ci il iyulun 28-də AƏQYK-nın təklifinə əsasən Azərbaycan MİK-sı kimsəsiz qadınların yaşaması məqsədilə müxtəlif müəssisə və orqanlarda sığınacaqların yaradılması üçün vəsait ayrılması haqqında qərar qəbul etdi [13, v.1]. 29 mart 1928-ci ildə isə Bakı Səhiyyə Şöbəsi tərəfindən kimsəsiz analar üçün 8 Mart günündə ev istifadəyə verilir [15, v.2-3].

Kəndlilərə maddi kömək, uşaq ölümünün qarşısının alınması, məişət şəraitinin yaxşılaşdırılması, yeni doğulanların yaxşı qidalandırılması və s. məqsədlərlə 20-ci illərin sonlarından başlayaraq AzMİK və XKS-nın kəndli qadınların hamiləlik, doğuş və uşağın yedizdirilməsi ilə bağlı sığorta edilməsi barədə AM 374-cü maddəsini müvafiq tutaraq sığorta ilə əlaqədar dəfələrlə xüsusi təlimat təsdiq etmişdir [19, v.2-4].

Dövlət Ali Sosial Tərbiyə İdarəsi xətti ilə 1927-ci ildə qəzalarda uşaq meydançalarının açılması, onların yerli vəsait ilə təchizatı və uşaqların qidalanması məsələsini XMK-nın iclasında müzakirəyə çıxarır. Kimsəsiz uşaqlarla mübarizədə Qəza Uşaq Komissiyaları, kooperativlər, peşəkar təşkilatlar arasında uşaqların nəzarət sisteminin tətbiqi məsələsini qaldırır və mərkəzi qəzadan gələn uşaqlara 15% yer ayrılmaqla uşaq evlərinin açılması təklifini irəli sürür [ 3,v.10]. Müvafiq olaraq 1928-ci ilin martında iki tərəfli yetim qalan fəhlə və qulluqçu uşaqlarının sosial müdafiəsini təmin etmək məqsədi ilə onların sığorta edilməsi qərara alınır [14, v.2]. Azərbaycan SSR MİK 1928-

ci il iyulun 2-də qəbul etdiyi qərarda digər məsələlərlə yanaşı həm də göstərilirdi ki, Xalq Səhiyyə Komissarlığı qadınların, xüsusilə də türk qadınlarının xüsusi tibb tədris müəssisəsinə marağını genişləndirməli, XMK qarşısında ana və uşaqların mühafizəsi məqsədilə tibb fakültəsində Pediatriya (uşaq həkimliyi) ixtisasına qəbul haqqında məsələ qaldırmalı, Ana və Uşaqları Mühafizə İnstitutunun işini gücləndirməli ana və uşaqların mühafizəsinin elmi əsaslarının işlənib hazırlanması üçün tədbirlər görməli idi. XSK bütün təşkilatları, dövlət orqanları və əməkçi kəndliləri yaşlıları genişləndirmək işinə cəlb etməli və həmçinin geniş uşaq yaşlıları şəbəkəsinin inkişafı üçün maddi baza hazırlamalı idi. XSK eyni zamanda şəhər və kəndlərdə yaşayan fəal qadın nümayəndələrdən istifadə etməklə məsləhətxanalarda səhiyyə-maarif işini təşkili etməli, hamilik işini nizama salmalı və genişləndirməli; doğuşların təşkilinə və göstərilən yardıma xüsusi diqqət yetirməli, onu ana və uşağın mühafizəsinin funksiyası kimi qəbul etməli, doğuş profilaktikasını (hər hansı xəstəliyin qabağını alma, qoruma) yaxşılaşdırmaq və yeni doğulan körpəyə tibbi qulluq etmək, sanitar şəbəkə və səyyar mamaların, tibb işçilərinin əmək şəraitini yaxşılaşdırmaq və göstərilən müvafiq ixtisasların dərəcəsinin artırılmasına ölçü götürülməli idi.

Bu komissarlıq növbəti 5 illik planın tərtibi zamanı ana, uşaq mühafizəsi arasında möhkəm maddi baza və sosial yardım yaratmaq, bunun üçün «Ana, Uşaq Mühafizəsi» işinə büdcədən ayrılan vəsaitin miqdarını artırmaq, həmkarlar ittifaqını, kooperativləri və bütün ictimai təşkilatları bu işin maddi təminatına daha çox cəlb etmək, həmçinin məktəbəqədər uşaq tərbiyə müəssisələri, qadın məsləhətxanaları doğum evləri və b.k. müəssisə və təşkilatların işinin canlandırılması üçün məsul sayılırdı [1-2].

Cənubi Qafqazda MİK öz nəzdində fəaliyyət göstərən Qadınların Əməyinin və Məişətinin Yaxşılaşdırılması Komissiyasının 1928-ci il 10-13 iyun tarixli vəsaitinə müvafiq olaraq həmin il iyulun 14-də ana və uşaqların mühafizəsi barəsində xüsusi qətnamə qəbul etdi. Qətnamədə ana və uşağın mühafizəsi ilə bağlı maddi bazanın yaradılması və sosial sığortanın təşkili, yerli və respublika müalicə fondu və profilaktika fonduna vəsaitlərin ayrılması; xəstəxanaların tikilməsi zamanı uşaq və qadınlar üçün xüsusi məsləhətxanalar və orada südəmər uşaq mətbəxləri açılması və s. nəzərdə tutulurdu. Qətnamədə göstərilirdi ki, doğuşa kömək məqsədilə kəndlərdə mamalar əlavə tibbi işlərdən azad edilsin, milli dili bilən mamaların sayı artırılsın, mamaların hazırlanması genişləndirilsin, müalicə müəssisələrində abortların aparılması üçün yerlər artırılsın, sənaye mərkəzlərində bütün sutkanı işləyən yaşlıların şəbəkəsi genişləndirilsin və s. qəzalara sərf edilən vəsaitin yarısı ana və uşaqların mühafizəsinə sərf edilsin, ana və uşaqların mühafizəsi, məktəbəqədər uşaq tərbiyəsinə və müəssisələrinə ayrılan vəsait neft fondundan verilən vəsaitindən çıxılsın, bütün uşaq məsləhətxanalarında südəmər uşaq mətbəxləri, məsləhətxanaları da açılsın. Eyni zamanda sənaye mərkəzlərində daimi yaslıların yaradılması genişləndirilsin, böyük xəstəxanalarda və iri sənaye müəssisələrində II növbədə işləyən qadınlar üçün yaslıların açılması vacib hesab edilsin və s.

Qərarda uşaqlara xəstəxanalarda və uşaq evlərində kömək göstərilməsini və uşaqlı anaların istirahəti üçün istirahət evlərində zəruri olaraq xüsusi bölmələrin ayrılmasının həll edilməsi Sosial sığorta idarəsi və digər cavabdeh orqanların qarşısında mühüm bir məsələ kimi qaldırılması nəzərdə tutulurdu [1, v.62].

Qərarda həmçinin fahişəliyə qarşı mübarizə ilə bağlı bir sıra tədbirlərin görülməsi: respublikada fahişəliyə qarşı mübarizə sovetinin təşkil edilməsi və Xalq Səhiyyə,

Əmək və Daxili İşlər Komissarlıqlarının qadın və uşaq fahişəliliyinə qarşı mübarizəni gücləndirməsi, təşkilatlarda bu məqsədlə ayrılmış xərclərin miqdarını yerli və dövlət büdcəsi, sosial sığorta orqanları, ictimai orqanlar (məsləhətlər, sosial yardımlar və s.) hesabına artırılması nəzərdə tutulur, qadın işsizliyi ilə bağlı təşkilatı işlərin mütləq şəkildə aparılmasının zərurəti qeyd olunurdu [1, v.4].

Lakin belə qərar, sərəncam, fərman və qanunların çox böyük əksəriyyəti kağız üzərində qalırdı. Çox vaxt bu rəsmi sənəd və hüquqi normalar RSFSR-dəki müvafiq sənədlərin mexaniki olaraq Azərbaycana «köçürülməsi» təəssüratı yaradırdı. Həyat reallıqları isə hamar kağız üzərində qalan pafoslu qərarlardan kəskin şəkildə fərqlənirdi. Elə təkcə respublika rəhbərlərinin adına yazılmış şikayət ərizələrindən məlum olur ki, qadınlara qarşı həm ayrı-ayrı şəxslər, həm də dövlət bürokratiyası tərəfindən törədilən qanunsuzluqlar və özbaşınalıqlar geniş miqyas almışdı [1, v.1-9].

## Nəticə

İnsan amili və onun cəmiyyətdə rolu sosial-iqtisadi inkişafı gücləndirmək üçün əsas cəhətlərdən biridir. İnqilabi dəyişikliklərin yaradıcısı olan insan praktikada formalaşır və ictimai tərəqqinin hərəkətverici qüvvəsi kimi çıxış edir. Tərəqqinin son məqsədinə çatmaq üçün siyasi və psixoloji cəhətdən yetişmiş kamil şəxsiyyətlərin olmasına ehtiyac duyulur. Sovet qadın siyasətinin pozitiv və neqativ tərəflərinin təhlili, qadınların cəmiyyətin ictimai-siyasi və sosial-mədəni həyatında tutduqları yer və oynadıqları rolun qiymətləndirilməsi və təhlili göstərir ki, qadınlarla bağlı dövlət orqanlarının qəbul etdiyi qərarlar və qanunlar real həyatda heç də özünü bütünlüklə doğrultmamışdı. Azərbaycan SSR MİK, XSK, XKS, XMK və digər hökumət idarələri qadın hüquqları, onların sosial müdafiəsi, ana və uşağın mühafizəsi, savadsızlığın ləğvi məqsədi ilə 1920-1930-cu illərdə bir sıra tədbirlər görməyə cəhd göstərdi. Çalışdıq ki, məqalə imkanları daxilində istinad edilən arxiv sənədləri və qaynaqlara əsasən əldə olunan nəticəni əks etdirək [1-33]:

1. Yeni sistem qadınlara ictimai həyatın bütün sahələrində kişilərlə bərabər hüquq, eləcə də vətəndaşlıq hüququ verdi.

2. Qadınların sosial müdafiəsinin təşkili dövlətin reallaşdırmaq istədiyi məsələlərdən biri oldu. Analığın və hamiləliyin mühafizəsi və sağlamlığının qorunması üçün xüsusi ağır və zərərli istehsalat sahələrində qadın əməyinin istifadəsinə qadağa qoyulması məqsədilə qadın əməyinin nizamlanması yolunda sovet hökuməti tərəfindən bir sıra qanunlar tərtib və qəbul edildi.

3. Qadının şəxsiyyətinin əxlaqını, cinsi toxunulmazlığını qorumaq məqsədilə cinayət qanunvericiliyində bir sıra xüsusi hüquqi normalar işlənilib hazırlandı və qəbul edildi.

4. Bütövlükdə sovet hakimiyyətinin ilk iki onilliyində Quzey Azərbaycanda yürüdülən rəsmi qadın siyasəti ilk növbədə qadının sosial-iqtisadi və ictimai-siyasi həyatın iştirakçısına çevrilməsi istiqamətində böyük uğurlar qazandı:

- qadın savadsızlığı tamamilə aradan qaldırıldı;
- onların ümumi ədəbi-mədəni səviyyəsinin yüksəldilməsi istiqamətində böyük uğurlar əldə olundu.

5. Bu siyasətin dünyəviliyi, gender bərabərliyi öz müsbət bəhrələrini səhiyyə, maarif sahələrində qadınların çox böyük, aparıcı qüvvəyə çevrilməsində də öz əksini tapdı.

6. Sənədlərdə qadınların sosial müdafiəsinin təşkili və onların sosial hüquqları ilə bağlı həyata keçirilən əmək siyasəti respub-

likada qadınların analıq vəzifələrinin icrası ilə əlaqədar güzəştlər, imtiyazlar və əlavə təminatların verilməsi ilə onların əməyinin yüngülləşdirilməsi prinsipinə əsaslanırdı.

7. Əmək məcəlləsi həyatın, təsərrüfat fəaliyyətinin əksər sahələrini əhatə etsə də, o dövrdə qadınların çox müxtəlif çeşidli hüquqlarının təmin olunması və qorunması mexanizmlərinin tam hüquqi əsasını yarada bilməmişdi.

Keçmiş ictimai münasibətlərin çox güclü qalıqlarını özündə yaşadan quruluş cəmiyyətdəki dəyişikliklərə qısa zaman kəsiyində adaptasiya edə bilmədiyindən qadının şəxsiyyət kimi azadlığına sanki düşmən kəsilmişdi:

- Bütünlükdə qadının ailədəki funksiyasında baş verən dəyişiklər, onun cəmiyyətdə rolunun artması, ailə qayğılarının yerinə yetirilməsi, əmək fəaliyyətində cəlb olunduğu ağır fiziki iş əslində qadın şəxsiyyətinin yeni sosialist istismar formasına gətirib çıxartdı. Səhərdən axşama qədər məişətdə ağır fiziki işlə yüklənmiş qadının
  a) asudə vaxtının məhdudluğu,
  b) uşaq doğumuna nəzarətin olmaması,
  c) uşağın sağlam böyüməsinə və təlim-tərbiyəsinə ayrılacaq vaxtın əmək prosesinə sərf edilməsi üzündən qadın gördüyü fiziki işdən zövq almırdı.

Yaranmış durum qadın haqqında mövcud stereotipləri, şablonları dağıtsa da, eyni zamanda proseslərin sosialist həyat tərzi üçün totalitar rejimin tətbiq etdiyi normalardan kənara çıxmasına təkan verdi:

- istənilən yeniliyin formal xarakter daşıması, insanların hakimiyyətə nəzarət etmək imkanın olmaması;
- sosial nəzarətin, şəxsiyyətin siyasi və əxlaqi şüuruna, hüquqi düşüncəsinə rejimin tələblərinə müvafiq olaraq göstərdiyi təsir,
- verilən siyasi qərarlara müvafiq aparılan tənzimləmələrin zamanın mövcud obyektiv şəraitinin tələbləri ilə üst-üstə düşməməsi,
- sovet totalitar rejiminin təbliğ etdiyi dəyərlər və məqsədlərin real həyatla uzlaşmaması cəmiyyətin üzvlərinin rejimə qarşı gizli və ya açıq şəkildə etirazına, müqavimət göstərməsinə gətirib çıxarırdı.

Göründüyü kimi, 1920-1930-cu illərdə yeni yaranan dövlətdə hüquqi dövlətin qurulması prosesində qadın hüquqları total rejiminin tələblərinə müvafiq təminat altına alınmış və müdafiə edilmişdir. İdarəetmədə onların cəmiyyət üzvləri tərəfindən tamlıqla qəbul edilməsi və təcrübi həyata keçirilməsinə münasibət isə birmənalı olmamışdır. Belə ki, nəzərdən keçirilən faktlar bir daha göstərir ki, 20-30-cu illərdə rəsmi milli və dini siyasətdə, maarif sistemində, istehsalatda hökm sürən inzibati amirlik metodunun xüsusiyyətləri Azərbaycanda reallaşan qadın siyasətindən yan keçmədi və qarşıda 1937-1938-ci illərin yaşanacaq acı faciələri dururdu. Bu totalitar rejimin həyata keçirdiyi siyasətin görünməyən tərəfləri idi.

Sovet qadın siyasəti Azərbaycan qadınının milli, etnik, dini və cinsi xüsusiyyətlərini nəzərə almadan, ailədə «kişi» nüfuzunun enməsinə, övlad tərbiyəsindən uzaqlaşdırmağa çalışmış, pambıq, üzüm və tütün tarlalarında gecəsiz-gündüzsüz qul əməyinə məhkum etmiş, kimya zavodları və pestisidli sahələrə qovulan qadınlarla millətin geninə dəhşətli zərbələr endirmişdir.

Araşdırmalar nəticəsində məlum oldu ki, sovet rejiminin Şimali Azərbaycanda həyata keçirdiyi qadın siyasəti Azərbaycanın milli mənafeyi naminə deyil, Rusiyanın siyasəti baxımından həyata keçirilirdi. Azərbaycan qadını bu siyasətin subyekti kimi

öz mentallığından, zərifliyindən uzaqlaşdırılmış, bütün növ yeraltı və yerüstü sərvətlərin istismarından əldə edilən gəlirdən Azərbaycanın dövlət büdcəsində qalan cüzi maliyyə vəsaiti milli qadın problemlərinin həllinə kömək edə bilməmişdi.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikası MDA: f.57, siy.1, iş 1556, 9v
2. Azərbaycan Respublikası MDA: f.57, siy.1, iş 526, 255v
3. Azərbaycan Respublikası MDA: f.57, siy.1, iş 593, 16v
4. Azərbaycan Respublikası MDA: f.379, siy.1, iş 601, 2v
5. Azərbaycan Respublikası MDA: f.379, siy.1, iş 722, 6v
6. Azərbaycan Respublikası MDA: f.379, siy.1, iş 723, 4v
7. Azərbaycan Respublikası MDA: f.379, siy.1, iş 832, 1v
8. Azərbaycan Respublikası MDA: f.379, siy.1, iş 1039, 1v
9. Azərbaycan Respublikası MDA: f.379, siy.1, iş 1101, 37v
10. Azərbaycan Respublikası MDA: f.379, siy.1, iş 1422, 30v
11. Azərbaycan Respublikası MDA: f.379, siy.1, iş 1456, 2v
12. Azərbaycan Respublikası MDA: f.379, siy.1, iş 1509, 82v
13. Azərbaycan Respublikası MDA: f.379, siy.1, iş 1902, 1v
14. Azərbaycan Respublikası MDA: f. 379, siy.1, iş 2169, 4v
15. Azərbaycan Respublikası MDA: f.379, siy.1, iş 2207, 11v
16. Azərbaycan Respublikası MDA: f.379, siy.1, iş 2353, 1v
17. Azərbaycan Respublikası MDA: f.379, siy.1, iş 2571, 27v
18. Azərbaycan Respublikası MDA: f.379, siy.1, iş 2907, 20v
19. Azərbaycan Respublikası MDA: f.379, siy.1, iş 3051, 5v
20. Azərbaycan Respublikası MDA: f.379, siy.1, iş 5213, 2v
21. Azərbaycan Respublikası MDA: f.379, siy..1. iş 5749,5v
22. Azərbaycan Respublikası MDA: f.379, siy.35, iş 3, 4v
23. Babazadə H. Kəndlilər arasında. «Kommunist» qəz., Bakı, 28 iyun, 1926
24. Bağırov. Hüquq mütəxəssisinə. «Kommunist» qəz., Bakı, 1926, 20 sentyabr
25. Богданов Д. Рынок разврата. Газ., «Бакинский рабочий», 1926, 20 сентября
26. Богданов Д. Два примера о проституции. Газ., «Бакинский Рабочий», 1926, 4 ноября
27. Гусейнова И.М. История народов Кавказа. Баку: Тахсил, 2006, 684 с.
28. Б. Гражданское и брачное совершеннолетие. Газ., «Бакинский рабочий», 1926, 26 сентября
29. О. Б. Гражданское и брачное совершеннолетие. Газ., «Бакинский рабочий», 1926, 26 сентября
30. Султанова А., Авакян Ар. Спец по брачным вопросам. Газ., «Бакинский рабочий», 1926, 3 сентября
31. Султанов Г., Несколько слов по брачному вопросу. Газ., «Бакинский рабочий», 1926, 28 сентября
32. Талыблы Б. О брачном возрасте. Газ., «Бакинский рабочий», 1926, 26 сентября
33. Т. Ш. Вопрос о брачном возрасте. Газ.,«Бакинский рабочий», 1926, 30 сентября.